

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 222 (21.883)

*23 noyabr 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Naxçıvan Dövlət Universitetində olub



***Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera və nümayəndəliyin Müdafiə İşləri üzrə kordinatoru Byorn Oliver Ram Naxçıvan Dövlət Universitetində olublar.***

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Seymur Talıbov qonaqları salamlayaraq ali təhsil ocağının strukturu və fəaliyyəti haqqında məlumat verib. Qeyd olunub ki, Naxçıvan Dövlət Universiteti yüksək dövlət qayğısı ilə əhatə olunub, burada distant və elektron təhsilin inkişafı üçün lazımi şərait yaradılıb. Universitetin beynəlxalq əlaqələrindən danışan Seymur Talıbov ali məktəbin "Erasmus+", "Mövlana" mübadilə proqramlarına qoşulduğunu və proqramlar çərçivəsində həyata keçirilən müxtəlif beynəlxalq layihələrdə uğurla təmsil olunduğunu diqqətə çatdırıb, bütün bunların dünya universitetləri ilə müəllim-tələbə mobilliyinin həyata keçirilməsinə geniş imkanlar açdığını bildirib.

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera təmsil etdiyi qurumun ümumi iş prinsipi və Azərbaycan nümayəndəliyinin fəaliyyəti barədə danışıb. Nümayəndəliyin rəhbəri universitetlə əməkdaşlıq etməkdə maraqlı olduqlarını və bu istiqamətdə səylərini əsirgəməyəcəklərini bildirib.

***Naxçıvan Dövlət Universitetinin mətbuat şöbəsi***

## 2017-ci ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2017-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 112 milyon 48 min 200 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz artaraq 4686,2 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 808 milyon 516 min 800 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,5 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində 2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 829 milyon 446 min manat vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş investisiyanın 759 milyon 629 min 900 manatı və ya 91,6 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

Cari ilin yanvar-oktyabr aylarında 366 milyon 927 min 400 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 4 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 18945 ton ət, 76227 ton süd istehsal edilmiş, bir il öncəki göstərici ilə müqayisədə ət istehsalı 2,1 faiz, süd istehsalı 1,4 faiz artmışdır.

* * *

2017-ci ilin yanvar-oktyabr aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 42 milyon 835 min 500 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 1,9 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 35 milyon 592 min 400 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,8 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 25 milyon 881 min 900 manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 3 milyon 791 min manatı və yaxud 14,6 faizi qısamüddətli, 22 milyon 90 min 900 manatı və yaxud 85,4 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 noyabr 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 62939-a çatmışdır ki, bunun da 54741-i və ya 87 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar-oktyabr aylarında açılmış 22980 bank hesabının 22878-i aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 noyabr 2017-ci il tarixə 1259-a çatmışdır.

* * *

Bu ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 6 milyon 474 min 300 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 27,9 faiz çoxdur.

* * *

Bəhs olunan dövrdə muxtar respublikaya 338 min 715 nəfər turist gəlmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz və ya 10502 nəfər çoxdur.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada 360 milyon 203 min 800 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri son bir il ərzində 1,2 faiz artaraq 329 milyon 709 min 800 ABŞ dolları, idxalın dəyəri 8,1 faiz azalaraq 30 milyon 494 min ABŞ dolları təşkil etmiş, nəticədə 299 milyon 215 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 1 milyard 444 milyon 127 min 700 manat, onun hər bir nəfərə düşən məbləği isə artaraq 3204,2 manat təşkil etmişdir.

* * *

2017-ci ilin yanvar-sentyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 415,1 manat təşkil etmiş və bu göstərici 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artmışdır.

* * *

1 oktyabr 2017-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3889 nəfər artaraq 451 min 929 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində muxtar respublikada ilk dəfə olaraq Su Təsərrüfatı İdarəsinin yaranmasının 85 illiyi münasibətilə tədbir keçirilib.***

## Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin yaranmasının 85 illiyi qeyd edilib



Tədbirdən əvvəl komitə əməkdaşları ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılmış abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər. Komitədə keçirilən tədbirdə komitə sədri Əsgər Əsgərovun məruzəsi, məruzə ətrafında komitənin aparat rəhbəri Əli Hacıyevin və Layihə-ekspertiza şöbəsinin məsləhətçisi Əli Abbaszadənin çıxışları olub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında 1932-ci il noyabr ayının 22-də ilk dəfə olaraq Su Təsərrüfatı İdarəsi yaradılıb. Bir neçə kiçiktutumlu sututarlar tikilib. Buna baxmayaraq, muxtar respublika ərazisində meliorasiya və irriqasiya sahəsində həllini gözləyən məsələlər qalmaqda idi.

Vurğulanıb ki, 1969-cu ildə ulu öndərimiz Heydər Əliyev respublika rəhbərliyinə gəldikdən sonra meliorasiya və irriqasiya sahəsinin inkişafına da qayğı göstərməyə başladı. Bu qayğının nəticəsidir ki, muxtar respublika ərazisində yerləşən böyük su anbarlarının hamısı, kiçik sututarların əksəriyyəti və digər xüsusi əhəmiyyətli hidrotexniki qurğular məhz həmin dövrdə tikilib istifadəyə verilib. 1971-ci ildə Araz, 1977-ci ildə Arpaçay dəryaçaları, 1980-ci ildə Sirab Su Anbarı, 1970-1980-ci illərdə Məzrə, Salvartı, Cəhri-1, Cəhri-2, Dizə, Yaycı kimi sututarlar yaradılıb. Suvarma suyunun əkin sahələrinə çatdırılması üçün magistral beton kanalların tikintisi muxtar respublikada əkinçiliyin inkişafında böyük dönüş yaradıb.

Bildirilib ki, idarəetməni təkmilləşdirmək məqsədilə 23 aprel 1980-ci il tarixdə Mexaniki Suvarma İdarəsi ləğv olunaraq onun bazasında Naxçıvan MSSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyi yaradılıb, nazirliyin tabeliyinə bir sıra aidiyyəti qurumlar daxil edilib.

Vurğulanıb ki, 1993-cü ildən sonra meliorasiya və su təsərrüfatı sahəsinin yeni inkişaf mərhələsi başlanıb. Bu sahəyə diqqət və qayğı yenidən bərpa olunub, mövcud obyektlərin dağılmasının qarşısı alınaraq gələcək inkişaf planı hazırlanıb.

Ulu öndərin siyasətini uğurla davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədilə imzaladığı 2001-ci il 24 oktyabr tarixli Fərmana əsasən Naxçıvan Muxtar Respublikası Su Təsərrüfatı Nazirliyi ləğv olunaraq bazasında Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi yaradılıb. 2004-cü ildə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinə çevrilib. Ali Məclis Sədrinin 2010-cu il 9 iyun tarixli Fərmanı ilə Agentliyin Əsasnaməsində dəyişikliklər edilib, əlavə vəzifə və hüquqlar verilib, Agentlik Komitəyə çevrilib.

Diqqətə çatdırılıb ki, 2003-cü ildən sonra Kəhrizlər İdarəsi yaradılıb, muxtar respublika ərazisində yerləşən kəhrizlər bərpa olunaraq həm də tarixi abidə kimi qorunmağa başlanıb.

Qeyd edilib ki, son illərdə muxtar respublikada meliorasiya və su təsərrüfatı sahəsində bir sıra işlər görülüb. Mütərəqqi suvarma metodlarından istifadə olunaraq torpaqlarda su itkisinin, şoranlaşmanın qarşısının alınması üçün müvafiq tədbirlər görülüb, eləcə də su təchizatı və kanalizasiya sahəsində beynəlxalq layihələr həyata keçirilib. Belə ki, son 5 ildə muxtar respublikada 904 kilometr uzunluqda kanal, 419 kilometr kollektor, 2946 kilometr təsərrüfatdaxili arxlarda lildən təmizlənmə işləri aparılıb və 192 kilometr uzunluqda yeni içməli su xətti, 308 kilometr uzunluqda suvarma xətti, 37 kilometr uzunluqda təzyiqli boru xətti, 7 kilometr kaptaj xətti, 24 kilometr uzunluqda açıq drenaj və 8 kilometr məsafədə qapalı drenaj xətti çəkilib.

Komitənin fəaliyyəti təkcə meliorasiya və irriqasiya işləri ilə məhdudlaşmır. Hər il yeni kaptajlar tikilir, içməli su xətləri çəkilir, mövcud olanlar təmir edilir. Komitə, eyni zamanda "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı Layihəsi" çərçivəsində də öz fəaliyyətini davam etdirməkdədir.

Tədbirdə vurğulanıb ki, melioratorların əməyinin dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsi onların öz işlərinə daha da məsuliyyətlə yanaşmasına səbəb olub. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 20 noyabr tarixli Sərəncamı ilə komitənin bir əməkdaşına "Əməkdar mühəndis" fəxri adı verilib, 4 əməkdaş isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub. Tədbirdə "Rəşadətli əməyə görə" nişanı və vəsiqələri əməkdaşlara təqdim edilib. Əməkdaşların bir qrupuna komitənin fəxri fərmanı, bir qrupuna isə pul mükafatı verilib.

✍ **Muxtar MƏMMƏDOV**

## Elmi-praktik konfrans keçirilib

***"Naxçıvan" Universitetində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi ilə birgə keçirilən elmi-praktik konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev açıb.***

Konfransda universitetin İqtisadiyyat kafedrasının müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Dilsuz Qasımovun "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın aqrar sahənin inkişafındakı rolu", Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin aparat rəhbəri Anar Cəfərovun "Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafında dövlət proqramlarının rolu: müasir vəziyyət və perspektivlər" və İqtisadiyyat ixtisasının IV kurs tələbəsi Minayə Məmmədovanın "Aqrar sektorun inkişafının əsas istiqamətlərindən biri də qəbul edilmiş Dövlət Proqramıdır" mövzularında məruzələri dinlənilib.

Bildirilib ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə bərabər "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın müvəffəqiyyətlə həyata keçirilməsi iqtisadiyyatın inkişafına öz təsirini göstərmiş, nəticədə, çoxşaxəli iqtisadiyyat formalaşmış, makroiqtisadi sabitlik təmin olunmuş, sahibkarlıq fəaliyyəti genişləndirilmiş, yeni müəssisələr açılmış, iş yerləri yaradılmışdır. Bundan əvvəlki hər iki proqramın yerinə yetirildiyi dövr ərzində sosial-iqtisadi inkişaf sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın makroiqtisadi göstəricilərinin artmasına səbəb olmuşdur.

Konfransa rektor, professor İsmayıl Əliyev yekun vurub.

**Nuray ƏSGƏROVA**

*Dövlət proqramı necə icra olunur?*

# Meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi muxtar respublika iqtisadiyyatının mühüm istiqamətlərindəndir

***Naxçıvan Muxtar Respublikasında tarixən aqrar sektorun inkişafı, təmiz havası və suyu, qədim təsərrüfatçılıq ənənələri burada özünəməxsus dadı və tamı olan meyvə və tərəvəz növlərinin yetişdirilməsinə imkan verir. Təbii ki, bu özünəməxsusluq zaman-zaman buradakı kənd təsərrüfatı məhsullarının ixracında da mühüm rol oynayıb, Naxçıvanın zəhmətkeş insanları yerli məhsulların əkilib-becərilməsinə daha çox maraq göstəriblər. Son illərdə muxtar respublikada bütün sahələrə göstərilən əsaslı və müsbət yanaşma kənd təsərrüfatında da özünü büruzə verib. Xüsusilə muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları bu baxımdan mühüm əhəmiyyət kəsb edir.***





Qeyd edək ki, Naxçıvanın torpaq-iqlim şəraiti müxtəlif giləmeyvə və meyvə ağaclarının inkişafı, bol və yüksəkkeyfiyyətli məhsul verməsi baxımından olduqca əlverişlidir. Burada düzən, dağətəyi və dağlıq ərazilərdə alma, armud, şaftalı, gavalı, alça, badam, cəviz və sair meyvə bağlarının salınması üçün münbit ekoloji mühit mövcuddur. Muxtar respublikada meyvəçilik və tərəvəzçiliyin inkişafını diqqət mərkəzində saxlamaq, məhsul istehsalını daha da artırmaq üçün ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən adıçəkilən sahələrin inkişaf etdirilməsi ilə bağlı ikinci dəfə növbəti dövlət proqramı təsdiq edilib. Belə ki, Ali Məclis Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi muxtar respublikada aqrar sektorun bu vacib və iqtisadi cəhətdən səmərəli sahələrinin inkişaf etdirilməsində yeni mərhələnin başlanmasına şərait yaradıb. Əvvəlki proqramda olduğu kimi, bu dövlət proqramında da meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qarşıya konkret vəzifələr qoyulub. Bəs ötən müddət ərzində bu sahədə hansı işlər görülüb?

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, ötən dövrdə muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğunlaşmış, yüksək məhsuldarlığa malik 372 meyvə sortunun və "Araz" Elm-İstehsalat Birliyinin kolleksiya bağında 54 üzüm sortunun genetik fondu toplanmışdır. Bu dövrdə tərəvəz əkini sahələrinin genişləndirilməsinə diqqət artırılmış, muxtar respublikada 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin ötən dövrü ərzində kartof istehsalı 1,1, tərəvəz istehsalı 0,8, meyvə istehsalı isə 1 faiz artmışdır.

Meyvəçiliyin və tərəvəzçiliyin inkişafında vacib məsələlərdən biri də müasir meliorasiya və irriqasiya sistemlərinin qurulmasıdır. Ötən dövr ərzində bu sahədə bir sıra tədbirlər görülmüş, Kəngərli rayonunun Böyükdüz və Xok kəndləri ərazilərində 117 hektar qapalı suvarma şəbəkəsi, Babək rayonunun Kərimbəyli və Kültəpə kəndlərində 217 hektar torpaq sahəsini əkin dövriyyəsinə qatan suvarma şəbəkəsi istifadəyə verilmiş, Şərur rayonunun Ələkli kəndinə Arpaçay sol sahil kanalından ümumi uzunluğu 3 kilometr olan yeni suvarma boru xətti çəkilmiş, 589 hektar ərazinin su təminatı yaxşılaşdırılmışdır. Bundan başqa, Uzunoba gölünə su aparan kanalda yenidənqurma, Şıxmahmud-Xəlilli kanalında təmir işləri aparılmışdır. Yaşıllıqların suvarılması üçün Şərur, Babək, Şahbuz, Culfa, Ordubad, Sədərək və Kəngərli rayonları ərazilərində müxtəlif diametrli borularla, ümumilikdə, 38 kilometr suvarma xətti çəkilmiş və mövcud olanlar təmir edilmişdir.

Meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişaf etdirilməsinə münbit şərait yaradan amillərdən biri də əldə olunan məhsulun soyuducu anbarlarda saxlanılmasıdır. Son illərdə belə anbarların yaradılması məqsədilə Sahibkarlığa Kömək Fondu tərəfindən 11 layihənin maliyyələşdirilməsinə 4 milyon 297 min 840 manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Proqramın qəbulundan ötən dövr ərzində muxtar respublikada dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına hüquqi və fiziki şəxslər tərəfindən ümumi tutumu 1750 ton olan 6 soyuducu anbar yaradılmış, ümumilikdə, muxtar respublika üzrə dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına hüquqi və fiziki şəxslər tərəfindən ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar istifadəyə verilmişdir.

Qeyd olunan dövrdə əkinçilik üçün yararlı olmayan torpaq sahələrində meliorativ tədbirlərin görülməsi və yeni meyvə bağlarının salınması da diqqətdə saxlanılmışdır. Belə ki, Kəngərli rayonu ərazisində torpaq örtüyünün dəyişdirilməsi və əraziyə kənardan münbit humus qatlı torpaq örtüyü gətirilməklə torpaqda münbit şərait yaradılmış və eyni zamanda əraziyə mütərəqqi damcılı suvarma sistemləri çəkilməklə 50 hektar sahədə püstə bağı salınmışdır. Püstə bağının ətrafındakı 4 hektar sahədə isə tarla qoruyucu yaşıllıq zolağı yaradılmışdır. 2017-ci ilin yaz əkini mövsümündə püstə bağında 30 hektar sahədə 10 min ədəd püstə fidanı ilə bərpa işləri aparılmışdır.

Ümumilikdə, ötən dövr ərzində kənd təsərrüfatına yararsız 213 hektar torpaq sahəsində meyvə bağları və yaşıllıq zolaqları salınmışdır. Həmçinin dövlət proqramına uyğun olaraq Naxçıvançay, Əlincəçay və Gilançay vadilərində 48 hektardan artıq sahədə, Arazboyu düzənlik ərazilərində isə 49,8 hektar sahədə meyvə bağları, 4,5 hektarda isə üzüm bağı salınmışdır. Bu dövrdə tingçiliyin inkişafı da diqqətdə saxlanılmış, Şərur rayonunda iki sahibkar tərəfindən 4 hektar, Babək rayonunda bir sahibkar tərəfindən 0,5 hektar sahədə müxtəlif meyvə növlərinin məhsuldar sortlarından tinglər yetişdirilmiş, ümumilikdə, təsərrüfatlarda 87 min ədəd tingin satışı həyata keçirilmiş, 73 min meyvə tingi isə əkin üçün hazır vəziyyətə gətirilmişdir. Bundan əlavə, Culfa rayonunun Dizə kəndində 0,3 hektar ərazidə 53000 ədəd üzüm tingi salınmaqla tingçilik təsərrüfatı yaradılmışdır. Şahbuz rayonunda mövcud 3 hektara yaxın tingçilik təsərrüfatının fəaliyyəti diqqət mərkəzində saxlanılmış, 2017-ci ilin yaz aylarında 80 kiloqram cəviz, 70 kiloqram badam tumu əkilmişdir.

Muxtar respublikada ənənəvi kənd təsərrüfatı sahələrindən biri də üzümçülükdür. Son illərdə bu sahənin inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılıb. Belə ki, Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına son illər muxtar respublika üzrə üzümçülüyün inkişaf etdirilməsi məqsədilə 8 layihənin maliyyələşdirilməsinə 179 min manat, 65 layihə üzrə meyvəçilik təsərrüfatlarının yaradılmasına 1 milyon 333 min 100 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu tədbirlərin davamı olaraq "Orqanik Məhsul Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 0,5 hektar üzüm, 1,9 hektar meyvə bağı salınmış, 8 min ədəd üzüm çubuğundan istifadə edilmiş, Şərur rayonunun Kərimbəyli kəndində 0,6 hektar, Çərçiboğan kəndində 0,5 hektar sahədə süfrə sortlarından ibarət yeni üzüm bağı salınmışdır. Babək rayonunun Nehrəm kəndində fiziki şəxs Ənvər Əliyev tərəfindən özəl investisiya hesabına 100 hektar ərazidə üzüm bağının yaradılması istiqamətində işlər davam etdirilmişdir.

Yuxarıda da qeyd etdiyimiz kimi muxtar respublikamızın münbit torpaqları, əlverişli iqlimi burada bir çox meyvəçilik sahələrinin inkişaf etdirilməsinə imkan verir. Belə meyvəçilik sahələrindən biri də badamçılıqdır. İnsan orqanizminə faydalı təsiri ilə tanınan badam, həm də yüksək ixrac qabiliyyəti ilə seçilir. Cari ilin payız əkini mövsümündə meyvəçiliyin bu sahəsinin inkişafı diqqətdə saxlanılaraq bir sıra mühüm addımlar atılıb. Belə ki, noyabrın 4-də Naxçıvan-Sədərək avtomobil yolunun kənarında – Kəngərli rayonunun Xok kəndi ərazisində yeni badam bağı salınmışdır. Buradakı bağın sahəsi 6 hektardır. Tinglərin əkilməsi üçün əvvəlcədən ərazidə meliorativ və aqrotexniki tədbirlər görülmüş, torpaq əkinəyararlı hala salınmışdır. Həmin iməcilikdə burada 3000-dən çox yerli badam tingi əkilmişdir. Ötən müddətdə ərazidə əlavə olaraq 4,8 hektar sahədə badam tinglərinin əkini aparılıb. Beləliklə, hər iki əkin prosesində 6000-ə yaxın badam tingi istifadə olunub.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən verilən məlumatda o da qeyd olunur ki, əhalinin ucuz və keyfiyyətli məhsullara tələbatının ödənilməsi məqsədilə Naxçıvan şəhərində və rayon mərkəzlərində həftənin şənbə və bazar günləri kənd təsərrüfatı, emal sənayesi məhsullarının satışı yarmarkaları təşkil olunmuş, yarmarkalarda 36 yerli məhsul istehsalçısı tərəfindən əhaliyə 121 adda, 230 çeşiddə məhsul bazar qiymətlərindən 10-30 faiz ucuz qiymətə təklif olunmuşdur.

Onu da vurğulamaq lazımdır ki, muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi işində ailə təsərrüfatlarının təşviqi artıq özünün yeni mərhələsinə qədəm qoyub. 18-19 noyabr tarixlərində Naxçıvan şəhərində keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında bunun bir daha şahidi olduq. Muxtar respublikamızın müxtəlif bölgələrindən festivala gətirilmiş qablaşdırılmış müxtəlif növ yerli meyvə və tərəvəz məhsulları həm ailələrin bu sahəyə marağı, həm dövlətin bu sahəyə qayğısı, həm də yuxarıda adıçəkilən dövlət proqramının uğurlu icrası kimi qiymətləndirilə bilər.

*Qeyd olunanlardan belə nəticəyə gəlmək mümkündür ki, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı yaxın illərdə muxtar respublika iqtisadiyyatında kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırmaqla yanaşı, onun ixrac imkanlarını da genişləndirəcək.*

**Səbuhi HƏSƏNOV**

---

***Daxili bazarı yüksəkkeyfiyyətli yerli ərzaq məhsulları ilə təmin edən müəssisələrdən biri də "Ləzzət Broyler" Məhdud Məsuliyyətli Cəmiyyətidir.***

*İstehsal müəssisələri*

## Daxili bazar yüksəkkeyfiyyətli quş əti ilə təmin edilir

Dövlət qayğısından bəhrələnən bu müəssisəyə Sahibkarlığa Kömək Fondundan 2012-ci ilin may ayında 400 min manat, dekabr ayında isə 650 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Ətlik istiqamətli quşçuluq təsərrüfatının yaradılması üçün Babək rayonunun Kərimbəyli kəndində 20674 kvadratmetr, kəsim və paketləmə üçün isə Hacıvar kəndində 5013 kvadratmetr torpaq sahələri ayrılmışdır.



Quşçuluq təsərrüfatında quşların bəslənilməsi üçün 5 sex inşa olunmuşdur ki, onlardan biri 30 min, qalan dördünün isə hər biri 20 min baş quş tutumuna malikdir. Həmin sexlərdə Türkiyənin "Tavsan" firmasının istehsalı olan kompüter idarəetmə mərkəzi ilə təmin olunmuş müasir texnoloji avadanlıqlar quraşdırılmış, quşların yemlənməsi və suvarılması üçün tam avtomatlaşdırılmış xətt istifadəyə verilmiş, isitmə və soyutma sistemi yaradılmışdır. Quşlar müəyyən olunmuş temperaturda 45-50 gün müddətində qapalı şəraitdə bəslənilir, onlara baytar həkim tərəfindən nəzarət olunur.

Quşların kəsimi və paketlənməsi üçün də lazımi şərait yaradılmış, Hacıvar kəndində ayrılmış ərazidə istehsal sahələri, müxtəlif temperatura malik soyuducu anbarlar, iş otaqları tikilib istifadəyə verilmişdir. Türkiyə Respublikasından alınmış avadanlıqlarla təmin edilmiş, istehsal gücü saatda 1500 baş quş kəsimi olan, sanitar-gigiyenik qaydalara və texnoloji proseslərə ciddi əməl olunan müəssisədə quşların bəslənilməsindən tutmuş satışa çıxarılmasınadək bütün texniki normalara ciddi riayət olunur. Quşların kəsilməsi qaydalara uyğun şəkildə aparılır, 6 mərhələdə təmizləmədən sonra quş əti çeşidlənərək 10 çeşiddə "Ləzzət Broyler" əmtəə nişanı vurulmuş xüsusi paketlərə yığılır. Hər bir paketin üzərində toyuq ətinin çəkisi, istehsal tarixi, saxlanma şəraiti və istifadə müddəti göstərilir. Sonrakı mərhələdə isə məhsul hər birinin tutumu 5 ton olan 2 ədəd xüsusi soyuducuda 8-10 saat müddətində mənfi 40-45 dərəcə temperaturda dondurulur və hər birinin tutumu 50 ton olan 3 ədəd soyuducuda mənfi 18 dərəcədə saxlanılır. Buradan isə sifarişə uyğun ayrı-ayrı ticarət obyektlərinə yola salınır. Babək rayonunun Kərimbəyli kəndində ətlik istiqamətli quşçuluq təsərrüfatında və kəsim, paketləmə istehsalı sahəsinin yerləşdiyi Hacıvar kəndində olarkən sanitar-gigiyenik qaydalara və texnoloji proseslərə ciddi əməl olunan müəssisədə quşların bəslənilməsindən tutmuş satışa çıxarılmasınadək bütün texniki normalara ciddi riayət olunduğunu gördük.

Onu da qeyd edək ki, "Ləzzət Broyler" MMC daxili bazarda yüksəkkeyfiyyətli quş ətinə olan tələbatı ödəməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da rol oynayır. Müəssisədə normal iş şəraiti yaradılıb, işçilər xüsusi geyim formaları, yüksək əməkhaqqı və servis xidməti ilə təmin olunublar.

**Ramiyyə ƏKBƏROVA**

---

## Sahələrdə şum qaldırılması və taxıl əkini işləri mütəşəkkil şəkildə aparılır



Naxçıvan Muxtar Respublikasında əhalinin etibarlı ərzaq təminatı istiqamətində həyata keçirilən tədbirlərin miqyası getdikcə artır. Belə tədbirlər taxılçılığın inkişafında özünü daha qabarıq şəkildə göstərir. Bunu cari ilin statistikası da təsdiq edir. Regionun torpaq mülkiyyətçiləri, sahibkarlar ötən ilin payızında və cari ilin yazında 2017-ci ilin məhsulu üçün 22 min 268 hektarı buğda, 9 min 364 hektarı arpa olmaqla, 31 min 632 hektar sahədə taxıl əkini həyata keçiriblər. Zəmilərə vaxtlı-vaxtında və aqrotexniki qaydalar əsasında qulluq edildiyindən taxılçılar bol məhsula sahib olublar. Belə ki, bu il sahələrdən 93 min 419 ton məhsul götürülüb. Bunun da 66 min 95 tonunu buğda, 27 min 324 tonunu arpa təşkil edir. Orta məhsuldarlıq 29,5 sentner olub. Bundan ruhlanan torpaq mülkiyyətçiləri 2018-ci ilin bol məhsulunun əsasını qoymaqdadırlar. Noyabr ayının 20-nə olan məlumata görə, 23 min 414,5 hektar sahədə səpin aparılıb. 17 min 574 hektar sahədə buğda, 5 min 840,5 hektar sahədə arpa əkilib. Taxıl əkinində Babək və Şərur rayonları irəlidə gedir.

Sahələrdə şum qaldırılması və taxıl əkini davam etdirilir.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Muxtar Respublikasında uşaqların inkişafı, onların cəmiyyətin layiqli üzvü kimi yetişməsi üçün sağlamlıq imkanları məhdud uşaqların da təhsilə cəlb olunması və reabilitasiyası diqqət mərkəzindədir. Bu məqsədlə müvafiq dövlət proqramları qəbul edilib, audio və elektron kitabxana, Distant Tədris Mərkəzi yaradılıb, Uşaq Bərpa Mərkəzinin fəaliyyəti gücləndirilib.***

# Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqlara yüksək diqqət və qayğı göstərilir

Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, cəmiyyətə fəal inteqrasiyası istiqamətində bu gün muxtar respublikada kompleks tədbirlər həyata keçirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası nəticəsində onların təhsilə cəlbi və cəmiyyətə inteqrasiya olunması sistemli xarakter almış, inklüziv təhsil üçün əsaslı zəmin hazırlanmışdır. Dövlət proqramının icrasına uyğun olaraq 2014-cü il oktyabrın 1-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilmişdir. Bununla da, hərəkət qabiliyyəti məhdud uşaqların təhsilə cəlbi təmin olunmuşdur. Distant tədrisə cəlb edilmiş uşaqların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və vebkameralar quraşdırılmışdır. Eyni zamanda mərkəzdə çalışan 3 müəllimə və uşaqların valideynlərinə sistemdən istifadə qaydalarının öyrədilməsi məqsədilə kurslar keçirilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, onların təlimində mütərəqqi üsulların tətbiqi, bu istiqamətdə kadr hazırlığının daha da gücləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” təsdiq edilmişdir.

Dövlət proqramının məqsədi sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin olunması, inklüziv və distant təhsilin əhatə dairəsinin genişləndirilməsi, onların sosial reabilitasiyasında müasir üsulların tətbiq edilməsi, müasir informasiya texnologiyalarından istifadə imkanlarının artırılması və bu sahədə müvafiq pedaqoji kadrların hazırlanmasıdır.

Hazırda Distant Tədris Mərkəzində sağlamlıq imkanları məhdud 24 uşaq təhsil alır. Bununla yanaşı, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə qabiliyyəti məhdud 7 uşaq üçün də distant dərslər keçilir. Onu da qeyd edək ki, proqramın icrasından ötən dövr ərzində sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülmüşdür. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində fəaliyyət göstərən brayl kitabxana, gözdən əlillər üçün brayl displeylər, sürətli internet, oxu materialını böyüdən avadanlıqlar, yazı formatında olan kitabları səsləndirən oxu maşını və subtitrli filmləri nümayiş etdirən kinozalın xidmətlərindən istifadə etmək mümkündür. Müvafiq dövrdə reabilitasiya təlimlərinə 104 uşaq cəlb edilmişdir. Mərkəzin kitabxana fondunun zənginləşdirilməsi daim diqqət mərkəzindədir. Görmə qabiliyyəti məhdud məktəbli uşaqlar üçün “Şəfəq” və “Könül işığı” adlı brayl jurnallarının xüsusi buraxılışı da hazırlanmışdır.









Eyni zamanda mərkəzdə nitq problemi olan uşaqlar üçün defektoloji bölmə, kinetik və əmək terapiyası, audio və elektron kitabxana xidmətləri fəaliyyətə başlamış, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 8 nəfər görmə qabiliyyəti məhdud olan şəxsə brayl kurslar təşkil edilmişdir.

Mərkəzdə uşaq serebral iflici, autizm, daun sindromu və periferik sinir sistemi xəstəlikləri olan uşaqların valideynləri ilə maarifləndirici görüşlər keçirilmiş, bu kateqoriyadan olan uşaqlarla təlim-tərbiyənin təşkili, evdə davranış və ünsiyyətqurma bacarıqlarının inkişaf etdirilməsinə dair məsləhətlər verilmişdir.

Proqramın icrasını həyata keçirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət komissiya yaradılmışdır. Komissiya sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranmış çətinliklərin aradan qaldırılması, ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş belə uşaqların dərslərdə iştirakının təmin olunması, onların fərdi nəticələrinin müəyyənləşdirilməsi və bu sahədə görülən işlərə nəzarət edilməsi və uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə muxtar respublikanın məktəbəqədər, ümumtəhsil, tam orta, məktəbdənkənar təhsil müəssisələrində və uşaq musiqi məktəblərində monitorinqlər aparmışdır. Monitorinqlər zamanı bu qəbildən olan uşaqlarla fərdi qaydada söhbətlər təşkil edilmiş, məktəblərdə valideyn, şagird və müəllimlər arasında maarifləndirici tədbirlər həyata keçirilmişdir. Hazırda muxtar respublikanın ümumtəhsil müəssisələrində sağlamlıq imkanları məhdud 940 nəfər uşaq təhsil alır ki, bunlardan 61 nəfəri 1-ci sinfə cəlb olunanlardır.

Bundan başqa, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Bu qəbildən olan uşaqlara göstərilən tibbi xidmətin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır. 2007-ci ildə Naxçıvan Uşaq Bərpa Mərkəzinin istifadəyə verilməsi sevindirici hal olub. Mərkəzdə anadangəlmə və ya sonradan müəyyən səbəblərdən sağlamlıqlarını qismən itirən uşaqların muxtar respublikadan kənara getmədən tamamilə dövlət vəsaiti hesabına müayinə və müalicə olunmalarına hər cür şərait yaradılıb.

Dövlət proqramının icrasına uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların ünsiyyətqurma bacarığının inkişafı və sosial reabilitasiyası da diqqət mərkəzində saxlanılmış, bu məqsədlə Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı istifadəyə verilmişdir. Bununla yanaşı, mərkəzdə elektriklə müalicə otağı, infraqırmızı və mikrodalğa ilə müalicə otağı, su prosedurları, masaj, müalicəvi bədən tərbiyəsi zalı və parafin aplikasiya otaqları da fəaliyyət göstərir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölməsinin Şərur və Ordubad rayonlarında yeni filialları fəaliyyətə başlamışdır.

Sağlamlıq imkanları məhdud uşaqların idmana cəlbi də diqqət mərkəzində saxlanılmışdır. Bu kateqoriyadan olan uşaqlar arasında idmanın kütləviliyinə nail olmaq üçün Naxçıvan şəhərində şahmat, üzgüçülük, qolbol, boccia, tennis və bədii gimnastika bölmələri, Şərur rayonunda 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlardan ibarət bədii gimnastika, üzgüçülük, masaüstü tennis, atıcılıq və şahmat bölmələri, Ordubad rayonunda şahmat və basketbol bölmələri, Culfa rayonunda şahmat və futbol bölmələri, Şahbuz rayonunda şahmat bölməsi, Kəngərli rayonunda şahmat, voleybol və futbol bölmələri və Şahtaxtı kəndində stolüstü tennis bölməsi fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının dəvəti ilə Azərbaycan Milli Paralimpiya Komitəsinin masaüstü tennis idman növü üzrə baş məşqçisi və II Respublika Uşaq Paralimpiya Oyunlarının qalibi olan sağlamlıq imkanları məhdud 2 uşaq muxtar respublikamızda olmuşlar. Sağlamlıq imkanları məhdud uşaqlar arasında idmanın bu növünü genişləndirmək məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzində valideynlər ilə görüş keçirilmiş, Şərur Olimpiya-İdman Kompleksində Naxçıvan Paralimpiya Federasiyasının Şərur rayonunda fəaliyyət göstərən masaüstü tennis bölməsinə cəlb olunan uşaqlar üçün təlim-məşq toplanışı olmuş, daha sonra isə sağlamlıq imkanları məhdud uşaqlar arasında Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzində stolüstü tennis idman növü üzrə yarış təşkil edilmişdir.

*Proqramın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində sağlamlıq imkanları məhdud uşaqların elektron məlumat bazası yaradılmışdır. Bu qəbildən olan uşaqların ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrinə cəlb edilməsi və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası ilə bağlı tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində olan əsas məsələlərdəndir.*

**Əmir ASLANOV**
**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin baş məsləhətçisi**

*Təhsil millətin gələcəyidir*

# Uğurları ilə seçilən təhsil ocağı

***Şərur rayonunda öz uğurları ilə seçilən çox sayda təhsil ocağı vardır. Onlardan biri də Şərur şəhər 1 nömrəli tam orta məktəbdir.***

Məktəblə tanışlıq zamanı məlum oldu ki, adıçəkilən təhsil ocağı 1963-cü ildən fəaliyyət göstərir. Məktəbin direktor əvəzi Əli Mehdiyev bildirdi ki, muxtar respublikada təhsilə göstərilən qayğıdan Şərur şəhər 1 nömrəli tam orta məktəbə də pay düşüb. Belə ki, 2010-cu ilin yanvar ayında məktəb binası yenidənqurmadan sonra müəllim və şagirdlərin istifadəsinə verilib. 738 şagird yerlik 3 mərtəbəli məktəb binasında fizika və kimya laboratoriyaları, elektron lövhəli siniflər, kompüter otaqları, kitabxana, hərbi kabinə və idman zalı vardır. Məktəbin həyətində müxtəlif idman qurğuları quraşdırılıb. Burada fəaliyyət göstərən şahmat otaqlarında uşaq və yeniyetmələrin zəka idmanı ilə məşğul olmaları üçün hər cür şərait yaradılıb. Müasir idman zalında şagirdlər müxtəlif idman növləri ilə məşğul olur, fiziki sağlamlıqlarını möhkəmləndirirlər. Onların idman yarışlarında yüksək nəticələr əldə etmələri də yaradılan şəraitin bəhrəsidir. Təhsil ocağının hərbi kabinəsi bu gün şagirdlərin ən çox üz tutduğu ünvanlardandır. Burada şagirdlərin hərbi hazırlığın ilkin sirlərinə yiyələnmələri üçün bütün imkanlar mövcuddur.

Məktəbin kitabxana fondunda 11 min 38 kitab vardır. Kitabxanaçı Rəsmiyyə Salmanova bildirdi ki, təhsil ocağının binası əsaslı şəkildə yenidən qurulub istifadəyə verildikdən sonra şagirdlər arasında mütaliəyə maraq xeyli artıb. Kitabxananın daha çox bədii ədəbiyyatlarla zənginləşməsi bu marağı yaradan əsas amildir. Gün ərzində onlarla şagird kitabxananın xidmətlərindən yararlanır. Muxtar respublika rəhbərinin 2017-ci il avqustun 28-də imzaladığı “Oxunması zəruri olan kitablar haqqında” Sərəncamın kitabxana işinin də inkişafına böyük təkan verdiyini vurğulayan həmsöhbətim onu da bildirdi ki, bu mütərəqqi addım, ümumilikdə, mütaliəsevərlərə göstərilən ən düzgün istiqamətdir. Kitabxanada siyahıda yer alan kitablardan ibarət guşə yaradılıb, bu kitabların mütaliəsi təmin olunub.

Fizika və kimya laboratoriyaları müasir və zəngin avadanlıqları ilə diqqəti cəlb edir. Burada yaradılan şərait şagirdlərin fizika və kimya dərslərini praktik şəkildə öyrənmələrinə xidmət edir. Məktəbin müəllimləri sinifdənxaric məşğələlərin, bilik yarışlarının keçirilməsinə də xüsusi önəm verirlər. Təhsil ocağında təşkil edilən müxtəlif viktorinalar, bilik yarışları, müsabiqələr şagirdlərin intellektual səviyyəsinin yüksəldilməsinə xidmət edir.



Bu təhsil ocağında təhsil sisteminin informasiya texnologiyaları əsasında təkmilləşdirilməsi və interaktiv təlim metodlarından istifadə yüksək nəticələrin qazanılmasına imkan verib. Məktəbdə 36 kompüter quraşdırılıb və internetə qoşulub. Elektron lövhəli siniflər isə keçilən dərslərin əyaniliyini təmin edib. Belə ki, şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki və bioloji proseslərin videogörüntülər vasitəsilə izahını müxtəlif cihazların, qurğuların, texniki vasitələrin iş prinsiplərini elektron lövhədə izləyə, eləcə də virtual tədris mübadiləsi apara bilirlər. Bu da, təbii ki, tədris materiallarının daha yaxşı mənimsənilməsinə kömək edir. Yaradılan imkanlar məktəbdə təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldib. Qəbul imtahanlarında bu təhsil müəssisəsinin uğurlu nəticələr göstərməsi də bunu sübut edir. Belə ki, ötən dərs ilində məktəbin 27 məzunu olub. Onlardan 15 nəfəri imtahanlarda yüksək nəticə göstərərək tələbə adını qazanıb. Həmin şagirdlərdən 3 nəfəri 500-700 intervalında bal toplayaraq ölkəmizin, eləcə də muxtar respublikamızın ali məktəblərinə qəbul olunublar.

Məktəbdə hər birində 15 uşaq olmaqla, 2 məktəbəhazırlıq qrupu da fəaliyyət göstərir. Məşğələni aparan Turan Novruzova bildirdi ki, həftənin 4 günü ərzində təşkil edilən məktəbəhazırlıq qruplarında məşğələlərin keyfiyyətli təşkili üçün lazımi şərait var. Dövlətimiz tərəfindən əyani vəsaitlər müəllim və uşaqların ixtiyarına verilib.

Sözsüz ki, hər bir təhsil ocağının uğuru peşəkar müəllim kollektivindən çox asılıdır. Bu məktəbin qazandığı nailiyyətlərdə müəllim təcrübəsi, pedaqoq əməyi danılmaz amil kimi diqqəti çəkir. Hazırda təhsil ocağında 376 şagirdin təlim-tərbiyəsi ilə 67 müəllim məşğul olur. Məktəbdə dərsdən sonrakı müddətdə fakültativ məşğələlərin effektiv olmasına da xüsusi diqqət yetirilib. Təhsil müəssisəsinin pedaqoji kollektivi müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərir, yeni metodlardan istifadəyə üstünlük verirlər. Kurikulumun tətbiqi ilə bağlı bir sıra işlər həyata keçirilir.

Məktəbin ibtidai sinif müəllimlərindən Nailə Mahmudova ilə söhbət zamanı bildirdi ki, çalışdığı təhsil ocağında hər bir müəllim öz üzərinə düşən vəzifəni dərindən dərk edir, gələcəyimiz olan uşaqların yaxşı təhsil almaları, geniş dünyagörüşünə və hərtərəfli biliyə malik olmaları üçün əlindən gələni əsirgəmir. Daha yaxşı nəticələr əldə edilməsi üçün isə çox çalışmaq, çox səy göstərmək lazımdır.

**✍ Nail ƏSGƏROV**

***Hər gün yüksək əhval-ruhiyyədə, enerjili və sağlam həyat yaşamaq istəyənlər, ilk növbədə, idmanla məşğul olmalıdırlar. “Sağlam həyat sağlam idmanın nəticəsidir”, – deyiblər. Bu deviz müasir idmanın əsas şüarı hesab edilir. Sağlamlığın bir nömrəli təminatçısı olan idmanın müxtəlif növləri mövcuddur ki, bunlarla məşğul olmaq üçün də muxtar respublikamızda hər cür şərait yaradılıb. Əgər əvvəllər idman deyəndə təsəvvürümüzdə ilk olaraq diqqətdən kənarda qalmış, kiçik, eyni zamanda varlığı belə, bilinməyən idman obyektləri canlanırdısa, indi vəziyyət tamamilə dəyişib. Artıq muxtar respublikanın şəhər və rayonları ilə yanaşı, kəndlərində də müasir idman zalları fəaliyyət göstərir. Bunun nəticəsidir ki, bir çox idman növləri ilə məşğul olan Azərbaycan milli komandaları təlim-məşq toplanışları üçün məhz Naxçıvanda bir araya gəlirlər.***

## Şərq Döyüş Sənəti Federasiyası ilkə imza atıb

### *Şərur rayonunda idmançılar və məşqçilər üçün təlim-məşq toplanışı keçirilib*





Hazırda muxtar respublikada 12 idman növü üzrə federasiya fəaliyyət göstərir. Onlar Naxçıvanda bu sahənin inkişafına, gənclərin sağlam şəkildə böyüməsinə öz töhfələrini verməkdədirlər. Bunlardan biri də Şərq Döyüş Sənəti Federasiyasıdır. Son 6 ayda əldə edilən nailiyyətlərə nəzər yetirdikdə cari ildə ən çox uğur qazanan qurumun məhz bu federasiya olduğunu görmək mümkündür. Bəhs olunan dövrdə federasiyanın məşqçi korpusunda böyük islahatlar aparılıb. Səbəbi isə çox sadədir: qələbə qazanmaq üçün, ilk növbədə, məşqçilər düzgün seçilməlidir. Məhz bu yolda Şərq Döyüş Sənəti Federasiyası gənc məşqçilərə üstünlük verməklə, bunun nə qədər düzgün atılmış addım olduğunu göstərib.

Federasiya bununla yanaşı, rayonlarda bölmələrin fəaliyyətini genişləndirməyi qarşısına məqsəd qoyub. Bununla bağlı keçirilən yığıncaqda federasiyanın sədri Azad Cabbarov vurğulayıb ki, cari ilin yanvar ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” barədə müşavirədə Ali Məclis Sədrinin tapşırıqlarına əsasən üstünlük daha çox peşəkar məşqçilərin dəvətinə, rayon və kəndlərdə yeni bölmələrin açılışına veriləcək. Məqsəd il ərzində federasiyanın nəzdində olan bölmələrdə kütləviliyin artırılmasıdır. Federasiyanın bölməsi ilk olaraq Kəngərli rayonunun Qarabağlar kəndində fəaliyyətə başlayıb. Ardınca Culfa rayonunun Milax və Ərəfsə kəndlərində, həmçinin Şahbuz və Babək rayonlarında açılan yeni bölmələr bu məsələnin həllində mühüm rol oynayıb. Təsadüfi deyil ki, yeni fəaliyyətə başlayan bölmələr nəticəsində bu gün muxtar respublikada federasiyanın nəzdində olan idmançıların sayı 500-ə çatıb.

Yeni yaradılan bölmələr uşaq və yeniyetmələrin bu sahəyə cəlbi istiqamətində aparılan işlər uğurların da sayını artırmaqdadır. Qələbənin daimi olması üçün federasiya qarşısına qoyduğu daha bir məqsədə çatıb: uşaq və yeniyetmələr, eyni zamanda gənclər üçün təlim-məşq toplanışı təşkil etmək. Şərur Olimpiya-İdman Kompleksində ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının təlim-məşq toplanışı təşkil edilib. Beşgünlük təlim-məşq toplanışında məşqlər Bakı şəhərindən dəvət olunmuş məşqçilər – üçqat dünya və Avropa çempionu, A kateqoriyalı məşqçi, beynəlxalq dərəcəli hakim, eyni zamanda kadetlərdən ibarət Azərbaycan yığmasının baş məşqçisi Elnur Alıyev və WAKO növündə gənclərin dünya çempionu və dünya üçüncüsü Camal Məmmədov tərəfindən aparılıb. Gündə iki dəfə keçirilən təlim-məşq toplanışında idmançıların texniki və fiziki hazırlıqları diqqətdə saxlanılıb. Eyni zamanda təlim-məşq prosesi zamanı hakimlər və məşqçilər üçün də seminarlar təşkil edilib. Bu seminarlarda daha çox yeni qaydalar və verilən xallar, kikboksinq idman növündə olan dəyişikliklər nəzəri olaraq hakimlərin və məşqçilərin diqqətinə çatdırılıb.

Məşqlərdə iştirak etmək üçün Şərur Olimpiya-İdman Kompleksində olduq. 60 idmançının iştirak etdiyi təlim-məşq toplanışında hər şey idmançıların rahatlığı üçün öncədən planlaşdırılmışdı. Onların gündəlik yeməklərinə, istirahət vaxtlarına və məşqlərdə fəallıqlarına xüsusi diqqət yetirilirdi. Məşq prosesində məşqçi Elnur Alıyev əli ilə iki azyaşlı uşağı göstərib “bunlar gələcəyin dünya çempionlarıdır, yorulmaq bilmirlər”, – deyərək söhbətə başlayır: “Əslində, kiçikyaşlılarla böyüklərin bir yerdə məşq etməsi yaxşı haldır. Uşaqlar böyüklərdən nəsə öyrənir və ya özlərini onlara oxşatmağa çalışırlar. Bu, həmçinin məşqçilər üçün də əlverişlidir. Uşaqlar arasında istedadlılar çoxdur. Sadəcə, onlarla mütəmadi olaraq çalışmaq, uşaqlara idmanın ilkin sirlərini öyrətmək lazımdır. Naxçıvan hər zaman güclü idmançılar yetişdirib, bu ənənə elə gördüyünüz uşaqlarla da davam edəcək”.

Elnur Alıyev bildirdi ki, təlim-məşq toplanışı gözlədiyindən də fərqli keçir: “Etiraf edim ki, şəraitin bu cür olacağını gözləmirdim. Federasiya uşaqlar üçün hər cür imkan yaradıb. Elə hər axşam toplantılarımız olur və uşaqlara bunu dönə-dönə vurğulayıram. Çalışıb bu imkandan istifadə etmək lazımdır. Bu, ilk təlim-məşq toplanışı olduğundan idmançıları çox yükləmək istəmirik. Daha çox texniki məşqlər üzərində çalışır, eyni zamanda fiziki göstəricilərinə də diqqət yetiririk. Gənclərin məşqlərə həvəslə yanaşması bizi də xeyli ruhlandırır”.

Baş məşqçi onu da vurğuladı ki, Şərq Döyüş Sənəti Federasiyası belə təlim-məşq toplanışlarını il ərzində 3-4 dəfə təşkil edəcək. Biz də, öz növbəmizdə, böyük məmnuniyyətlə məşqlərdə iştirak edib uşaqlara yeni qaydalar, dəyişikliklər barədə həm nəzəri, həm də praktik olaraq məşğələlər keçəcəyik.

Təlim-məşq toplanışında iştirak edən Şərq Döyüş Sənəti Federasiyasının məşqçilərindən Namiq Musayev, Natiq Yaqubov və Xəyal Abdullayevin də fikirlərini öyrəndik. Onlar bildirdilər ki, bu cür təlim-məşq toplanışlarının təşkil edilməsi idmançılarla yanaşı, məşqçilər üçün də müsbət haldır. Çünki dəyişikliklər barədə məlumatlanmaq, eyni zamanda məşqçilərin bir arada məşq prosesində çıxış etmələri təcrübə baxımından onlara da öz təsirini göstərir.

İdmançılar Razzaq Əliyev, Fərman Rzayev, Əhməd Rzayev, Rauf Həsənov, Orxan Həsənov, Yusif Məmmədov və Fərid Məmmədovla söhbətimizdə onların da təlim-məşq toplanışından məmnun qaldıqlarını gördük. Bildirdilər ki, onlar üçün kompleksdə hər bir şərait yaradılıb. Gündə iki dəfə keçirilən məşqlər praktik cəhətdən müsbət təsir göstərib. Məqsəd isə bu toplanışda lazım olanları öyrənmək, qarşıdakı yarışlara ciddi hazırlaşmaqdır.

Göründüyü kimi, beşgünlük təlim-məşq toplanışı həm məşqçilər, həm də idmançılar üçün uğurla başa çatıb. Federasiyadan onu da öyrəndik ki, qarşıdakı aylarda da növbəti toplanışlar, seminarlar təşkil olunacaq və yenidən Bakı şəhərindən məşqçilər dəvət ediləcək.

**Ceyhun MƏMMƏDOV**

---

*Yeni nəşrlər*

## Bir damla mürəkkəb bir milyon insanı düşündürə bilər

***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, publisist Hüseyn Əsgərovun “Biz necə mütaliə edirik” (“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, 2017-ci il) kitabını, adətim üzrə, bir neçə dəfə vərəqlədim. Bazar günü isə planlaşdırdığım bütün işləri təxirə salıb bu sətirləri yazmaq qərarına gəldim.***




Onu deyim ki, Hüseyn Əsgərovu yaxından tanıyanlar, sözün həqiqi mənasında, bu ziyalı insanın mütaliəsinə yaxşı bələddirlər. Yaşının bu vaxtında da kitab, mütaliə onun ən yaxın yolyoldaşıdır. Bunu bildiyimdən əlimə keçən yeni kitabına bu adı verdiyi üçün təəccüblənmədim. Elə həmin yazıdan da öz yazıma başlıq çıxardım. Bu həqiqəti yüz dəfələrlə yaşamışam, yaşayanların söhbətləri ilə bu həqiqətin doğruluğuna inanmışam...

Həssas oxucu duymamış deyil ki, bu bir damla mürəkkəbin arxasında İlahi söz dayanır. İçimizin duyğularını, düşüncələrini ifadə edən söz o mürəkkəblə yazılır. Bir qədər obrazlı desək, bir milyon insanı düşündürə bilən bir damcı mürəkkəb sözün şəklidir. Hüseyn Əsgərovun yaradıcılığından keçən başlıca xətt onun bu sözə çox həssaslıq və ehtiramla yanaşmasıdır. Bu da Hüseyn müəllimin qələmə aldığı istər sənədli, istərsə də bədii yazılarının dəyərini artıran başlıca amildir. Elə bu kitabda onun “Minimum söz, maksimum məna” adlı yazısında müəllifin sözə münasibətini hiss etmək çətin deyil: “Sözün düzü, bu yazıda az sözlə dərin məna kəsb edən ədəbi nümunələrdən bəhs etmək, onları roman oxumağa vaxtları olmayan oxucularla paylaşmaq istəyirdim. Amma sözə ehya vermək cəhdimdə söz sözü gətirdi, arşın bezi. Ən əvvəl söz haqqında söz demək zərurəti yarandı. Nə etməli, mətləbə keçmək üçün gərək ənənəyə hörmət edəsən”.

Kitab boyu müəllifin bu ənənəyə böyük hörmətini görürük. Hüseyn Əsgərovun publisistikası və tərcümələri toplanılan yeni kitabının publisistika bölməsindəki yazıların özləri müxtəlif janrlardadır. Müəllif qələmə aldığı bu yazılarda sözə ehtiramını qoruyub saxlaya bilib.

Ədəbiyyatımızın korifey və əvəzolunmaz sənətkarı Mirzə Cəlilin çoxşaxəli yaradıcılığından bəhs edərkən “ədəbiyyatda kiçik adamlar və ya surətlər” ifadəsi ilə tez-tez rastlaşırıq. Bu da onunla bağlıdır ki, həmin obrazlar öz daxili aləmləri, həyata fərdi baxışları, danışıq tərzləri, dilimizin bazisinə söykənən ifadə tərzləri ilə təqdim olunurlar, hər birimizə təbii ovqat aşılayırlar. Hüseyn Əsgərov da o adamlardan böyük məhəbbətlə bəhs edir. Sonra isə müəllifin mütaliə coğrafiyasının genişliyinə düşürük. Həmin o kiçik adamları dünya yazıçılarının əsərlərində görürük. Diqqətimizi cəlb edən onların kiçik bir deyimlə (sözlə) böyük məna kəsb edən ifadələri olur.

“Kiçik adam” obrazları böyük ədəbi uğurların açarı kimi” adlı yazısında Hüseyn Əsgərov Mirzə Cəlillə yanaşı, məşhur söz ustaları Luçiano Vincenzoninin, Mario Püzonun, Quentin Tarantinonun, Fransua Rablenin, Mark Tvenin, Aligyeri Dantenin və başqalarının əsərlərini təhlil obyektinə çevirir. Gəldiyi qənaətlərlə, biz də inanırıq ki, oxucular da razılaşacaq. Çünki həmin “kiçik adamlar” “kiçik” olsalar da, sözləri böyük məna tutumuna malikdir.

Bu bölmədə işıq üzü görmüş, “İstiqlal qığılcımları”, “Ekran arxasındakı adam”, “Füzuli təbib kimi”, “Metroda ehtiyatlı olun”, “Atla müalicə-hippoterapiya”, “Əlahəzrət yalan – o, nə vaxt müqəddəsləşir?” və başqa yazılar mövzulara baxış nöqteyi-nəzərindən öz fərdi məqamları ilə diqqət çəkir. Müəllif həmin fərdi məqamları ümumiləşdirərək oxucunu özü ilə həmfikir edə, düşündürə bilir. Yazıların ədəbi siqlətini gücləndirən bir məsələni də hörmətli oxucuların diqqətinə çatdırmaq istəyirəm: Bu yazılarda Hüseyn Əsgərovun həyat hadisələrinə, çoxları üçün adi görünən məqamlara güclü duyğu və həssas münasibəti oxucunun yadına tez-tez rastlaşdıqları situasiyaları salır; həmin situasiyalara, adətən, biganə münasibət göstərməyimizi və ya lazım olmayan prizmalardan yanaşmağımızı ortaya qoyur.

Hüseyn müəllim uzun illərdir ki, həm də tərcüməçiliklə məşğuldur. Tərcümələrində müəllifin dilimizin zəngin çalarlarından ustalıqla istifadə etdiyi göz qabağındadır. Dünya ədəbiyyatının tanınmış nümayəndələri Mark Tvendən, Əziz Nesindən, Anton Pavloviç Çexovdan, Mixail Zadornovdan, Efraim Kişondan və başqalarından etdiyi tərcümələri oxuyarkən düşünürsən ki, həmin yaradıcılıq nümunələri doğma dilimizdə yazılıb. Belə demək daha dəqiq olar: Hüseyn Əsgərov tərcümə etdiyi əsərləri “özümüzünküləşdirib”. Təbii ki, bu da müəllifin sözə munis münasibətinin ifadəsi, tərcüməyə ciddi yanaşmasının göstəricisi, dilimizin zənginliyinin təsdiqidir.

Hüseyn Əsgərovun “Biz necə mütaliə edirik” kitabının ərsəyə gəlməsində bir amili xüsusi vurğulamağa ehtiyac duyuruq. Yuxarıda bəhs etdiyimiz “Biz necə mütaliə edirik” yazısı kitabın qayəsini açır. Müəllif yazır: “Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il avqustun 28-də “Oxunması zəruri olan kitablar haqqında” Sərəncamını son illər ədəbiyyat adına atılmış ən dəyərli addım, kitab mütaliəsinin təşviqində görülmüş ən mühüm iş hesab edirəm. Hazırda kitaba laqeydliyi, şablon ədəbiyyata sevgini göz önünə alsaq, bir çox ciddi əsərlərin bu formada oxudulmasını dəstəkləyirəm. Yoxsa başqa cür düzələnə oxşamır. Yalnız mütaliəli toplum cinayətdən, vəhşilikdən uzaq olur və ailəsinə, ölkəsinə, dünyaya faydalı biri kimi yetişir. Nəhayət, gözlər smartfonlardan çəkilib kitablara dikilməlidir. Nəhayət, gənclər kitab seçimində müəyyən vərdişə nail olmalıdır. Çünki insan xarakterində bir sıra digər davranışlar kimi mütaliə də vərdişdir. Yəni işlənməyən kotan paslandığı kimi, mütaliə etməyən beyin də işləkliyini itirir. Bu mənada, gənclər üçün zəruri olan otuz bir ədəbiyyatın müəyyənləşdirilməsi, fikrimizcə, mütaliə vərdişinin yaranması üçün yetərlidir. Tövsiyə olunan kitablar tariximiz, mədəniyyətimiz və milli kimliyimiz haqqında dolğun məlumat verir, gənc nəslin həyat yolunun müəyyənləşdirilməsinə və dünyagörüşünün artırılmasına xidmət edir”.

***P.S.*** *Sözlə başladıq, mütaliə ilə bitiririk. Çünki sözə ehtiramı ancaq mütaliə ilə formalaşdırmaq olar. Hüseyn Əsgərovun bu kitabı da mütaliəyə doğma münasibət göstərməyin vacibliyini ortaya qoyur.*

**Muxtar MƏMMƏDOV**

---

***İtmişdir***

Əsgərov Əli Əsgər oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti bina 62, mənzil 2-də yaşamış Əhmədov Abbas Hüseyn oğlunun adına olan evin 6966 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Xətai məhəlləsi 18/17A-da yaşamış Kürdov Rüstəm Fətulla oğlunun adına olan AA -006758 seriya nömrəli torpağın plan-ölçüsü və MH-0034339 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 953**